# *İcma:* "Ermənistanın XİN başçısının Haaqadakı çıxışı bu ölkənin öz diplomatlarına heç cür nəzarət edə bilmədiyini göstərir"

**Ermənistanın xarici işlər nazirinin dünən Haaqada etdiyi çıxış onu göstərir ki, ya Ermənistan hakimiyyəti öz diplomatlarına heç cür nəzarət edə bilmir, ya da elə özü onlara gecə-gündüz Azərbaycan əleyhinə danışmaq, böhtan atmaq tapşırığı verib və bir növ, rol bölgüsü aparıb.**

Bu barədə Qərbi Azərbaycan İcmasının bəyanatında bildirilib.

Qeyd olunub ki, Ermənistanın 30 il ərzində beynəlxalq təşkilatların qərarlarını qulaqardına vurması, hətta onlara kinayə ilə yanaşması fonunda bu gün elə həmin erməni diplomatlarının BMT Təhlükəsizlik Şurasından, Beynəlxalq Ədalət Məhkəməsindən, Fransa Senatından, Litva XİN-dən, Rasmus Kanbak, Lindsi Snell kimi irqçi və muzdlu mirzələrdən, saman çöpündən mədəd umması onların düşdüyü acınacaqlı vəziyyətin bariz göstəricisidir.

Azərbaycan.- 2024.- 10 fevral, № 29.- S.6.